AKADEMİK NİZAMİ CƏFƏROV: MİLLİ İDEALLAR

60 yaş! Nizami Cəfərov 21 sentyabr 1959-cu ildə anadan olub.

Azərbaycan kəndində yaş məfhumu deyəsən yox idi! Heç yaş soruşmazdılar da. Belə bir sorğu olardısa da, necə deyərlər "diplomatik" hazır cavablar var idi. "Filankəs məndən 10 yaş böyükdür", "Mən filankəsin toy günündə doğulmuşam" və s. və i.a. Sual verənlər paylarını götürər və bir də yaş soruşmağa cürət etməzdilər.

İndi neynək kəndimizəmi qayıdaq? Bütün "intellekt"lərin toplaşdığı baş kəndimizimi tərk edək?! Şəhərdə 60 yaşı yamanca böyük yaş qayırıblar!

Tibbdə qocalmaq, uzunömürlülüklə bağlı bir elm sahəsi var: Gerontologiya - "gerontos" - qoca, "loqos" hamımızın bildiyi ifadə. O elmin təsnifatına görə 90 yaşdan yuxarı yaşayanlara "uzunömürlü" statusu verilir. O statusa çatmağa hələ çox var. Hələ yaratmağa vaxtımız çoxdur, vaxtınız çoxdur!

Ürəyimdən Nizami müəllimin 60 illik yubileyinə bir yazı dərc etdirmək keçdi. Üz tutdum Axundzadə adına kitab məbədinə. Kataloqlar yerləşən dolabın C hərfi yazılmış 17 saylı dolabçasında materiallar bolluğuna düşdüm. Və elə o anda da fikrim qarışdı. Nədən yazsam, nə haqda yazsam yaxşı olar. Nizami müəllimin 5 cilddən ibarət elmi əsərlərinə ekskurs edimmi?! Yox! Elmdəki uğurlarına görə elmi adlarını alıb. Bu adlara halallıqla sahib olub. "Şəxsiyyətin xarakteri elmi əsərlərdə tam açılmaya da bilər" düşünərək başqa əsərlər axtarıram. Deyəsən nəsə tapıram. Portret-əsərlər. Nizami müəllim bu portrerlərdə nə axtarıbsa, elə mən də onu Nizami müəllimdə axtarıram. Bir xeyli portret-əsərlərlə üzləşdim! "Mir Cəlalın milli idealları", "Vidadi Babanlı" "Anar", "Elçin. Yaradıcılıq yolu", "Nəriman Həsənzadə" və s.

"Xalqın gözü tərəzidir" deyimini yəqin ki, araşdırmaq fikrindən uzağıq. Elə Nizami müəllim şəxsiyyətinə olan sevgi onun milli dəyərlərimizi yaşatmağındadır. Sifariş verdiyim ilk kitabın - "Mir Cəlalın milli idealları"nın II fəsli diqqətimi çəkir. "Milli ədəbi irs... və milli ideallar". Yeri gəlmişkən, birləşdirmə funksiyası daşyan "və" bağlayıcısı kimi tanıdığımız bu bağlayıcı Nizami müəllimin dilində qüvvətləndirici ədat kimi səslənir. İllər uzunu, əsrlər uzunu birləşdirməklə məşğul olan "və" Nizami müəllimin dilində "müstəqillik" qazanır, fikri, ideyanı, məramı qüvvətləndirən, gözəçarpan edən "əsas" hörmətinə yüksələn "köməkçi" nitq hissəsinə çevrilir: "Milli ədəbi irs tərəqqi tapmış (özünü dərk etmiş!) hər bir millətin mənəvi sərvəti, tükənməz xəzinəsidir... Və bu sərvətə, bu xəzinəyə bütün miqyası ilə sahib çıxmadan mənən, ruhən, xüsusilə məfkurə baxımından mükəmməl millət olmaq mümkün deyil.

Mir Cəlal o ziyalılardan idi ki, ilk gənclik illərindən başlayaraq mənsub olduğu xalqın dilini, ədəbiyyatını, mədəniyyətini və s. dərindən öyrənmişdir(1).

Mir Cəlalın əsərlərinə istinadən milli idealları ortaya qoyan akademik özünəməxsus təmkinlə, Mir Cəlal ideallarını oxucusunun beyninə hopdurur: "Nizami şeir məktəbini davam və inkişaf etdirməkdə Füzulini ilhamlandıran mühüm amillərdən biri də dil məsələsi olmuşdur. Füzuli bütün başqa azərbaycanlılar kimi, Nizaminin fars dilində yazmağa məcbur olmasına acımış və heyfslənmişdir. Böyük ustadın dahiyanə poemalarının ana dilində səslənməməsi öz xalqının xələf oğlu, öz cəmiyyətinin böyük vətəndaşı olan Füzulini narahat etməyə bilməzdi" (1).

Monoqrafiyanın başqa bir yerində Mir Cəlalın Səməd Vurğun haqqındakı fikirlərini sitat gətirməklə Nizami Cəfərov öz milli ideallarını gündəmə gətirir: "Mir Cəlal ümumiyyətlə, böyük şairə həmişə xüsusi ehtiram göstərmişdir. Və bunun təzahürlərindən biri "Səməd Vurğunun əziz xatirəsi" məqaləsidir (1956) ki, aşağıdakı təsirli olduğu qədər də rəmzi (və rəmzi!) bir müqayisə ilə başlayır: "Orduda belə bir qayda var: şəhid olan nadir qəhrəmanın adı hissənin siyahısında hər səhər yoxlama zamanı başda çəkilir. Ədəbiyyat ordenimizin içində də müasir şeirimizin qəhrəmanı Səməd Vurğun buna bənzər şərəfli bir yer tutmuşdur.... Səməd Vurğun həmişə inkişafımıza vurğun bir ehtirasla mübarizələrimizdə və ədəbi həyatımızda iştirak edir".

Millilik və dil anlayışlarının vəhdəti sözdə anlaşıla bilməz. Bunun üçün ruhunda və cismində milli olmalısan.

Nizami müəllimin bəxtinə düşən odur ki, ruhən milliliyi dil özündə ehtiva edir ki, həm də bizim hörmətli akademikimizin qismətinə dilçilik sahəsində külüng vurmaq düşüb.

Yaxşı qismətdir!

Yenə də Mir Cəlal timsalında akademik özünün dillə bağlı milli ideallarını səsləndirir: "Mir Cəlal üçün dil məsələsi milli mənsubluğun (və milli özünü təsdiqin!) ən mühüm məsələsi idi...

Mir Cəlal "Bədii dilimiz haqqında" məqaləsində (1939) göstərir ki, bu gün "xalqdan, danışıq dilindən alınmış, nədənsə son zamanlara qədər ədəbi dilə, yazıya düşməmiş sözlər bədii əsərlərə cəsarətlə gətirilir. Bu cəhətdən Səməd Vurğunun şeir dili diqqətəlayiqdir. İlk baxışda yazı üçün "bir təhər" görünən sayrışmaq, şütümək, kövrək, nisgil, sanbal, ilqar, quzey, güney, ilıq, qəlbi, cığal kimi sözləri indi hamı başa düşür, işlədir. Eldən gələn bu sözlər bədii əsərdə özünə vətəndaşlıq hüququ aldıqca, bir tərəfdən, yazıçının silahı qüvvətlənir, o biri tərəfdən, bu sözlər Azərbaycan dilinin gözəlliklərini ədəbiyyata gətirir". Nizami müəllim yenə də Mir Cəlaldan dilimizə Cəlil Məmmədquluzadə baxışı ilə bağlı seçmə edir: "Lakin bu heç də müasir bədii dilimizin Haqverdiyev və Molla Nəsrəddin dilindən üstünlüyü demək deyildir. Biz Molla Nəsrəddin stilinin sadə, aydın, yığcam, bədii nəsr dilinin inkişafında hələ çox az iş görmüşük".

Milli ideallarımızla bağlı elə buradaca XX əsrin əvvəlində Cəlil Məmmədquluzadə - XX əsrin ortalarında Mir Cəlal - XX əsrin sonu və XXI əsrin əvvəlində akademik Nizami Cəfərov xətti - milli ədəbi irsimizin, akademik özü demiş, "genotip"imizin subyektləri göz önünə gəlir.

Bədii irs tariximizin öyrənilməsində başqa bir xətt: Mir Cəlal - Bəxtiyar Vahabzadə (və Mir Cəlalın tələbəsi - red. Nizami Cəfərov) - Nizami Cəfərov-xətti ortaya qoyulur: "Xalq şairi, akademik (və Mir Cəlalın tələbəsi) Bəxtiyar Vahabzadə yazır: "Mir Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və çüllur dili idi. Onun dili xalq danışıq tərzinə uyğun, son dərəcə canlı, təbii ifadələrlə zəngin və bədii dildir. Buna görə də istər elmi, istərsə də bədii əsərlərə ilk növbədə dilin təmizliyi, qüsursuzluğu, ən ümdəsi isə xəlqiliyi baxımından yanaşır, bu vacib şərtləri hamıdan tələb edirdi" (1).

Sonra Nizami müəllim qeyd edir: "Və Bəxtiyar Vahabzadə xatırlayır ki, Mir Cəlal normal, keyfiyyətlə dilə "adam dili" deyirdi. Heç vaxt unuda bilmərəm ki, Bəxtiyar müəllimdən çox-çox sonralar - 1977-ci ildə eyni ifadəni Mir Cəlal müəllimin dilindən mən də eşitmişəm... Elə Mir Cəlalın dil qarşısında qoyduğu tələbi Nizami müəllim bu cür dəyərləndirir və sonda Mir Cəlalın "Açıq kitab" romanından nümunə gətirilməklə Azərbaycan dili qarşısında öz milliliyini nümayiş etdirir. "Və Mir Cəlalın ədib-müəllim kiçik-böyük üstünlüklərindən biri də o idi ki, başqalarından tələb etdiklərinə ilk növbədə özü əməl edir, nümunə göstərirdi...

"Açıq kitabda yazırdı: "İlin o vaxtı idi ki, yay istisi adamların canından yenicə çıxmış, soyuq isə hələ kar eləməmişdi. Pəncərələr yenicə örtülür, qış tədarükü yada düşürdü. Isti paltarların boğçadan çıxarılıb həyətlərə, eyvanlarda çırpıldığını, şərifə atıldığını görmək, köhnəlmiş naftalin iyini duymaq olurdu. Dünənəcən sərinlik axtaranlar indi daha kölgədən qaçır, küçənin günəşli tərəfinə keçirdilər. Üzlərə dəyən yüngül küləyin soyuqluğundan, saralmış yarpaqların kəpənək kimi tək-tək yerə enməsindən, gündüzlərin qısalmasından, havaların tutulmasından, arana köçən durna qatarının göydən gələn boğuq səsindən, məhsul yığımından, meyvə bolluğundan... məlum idi ki, payızdır".

Başqa bir portret-əsərində Nəriman Həsənzadə dünyasına qısa bir səyahət edən akademik "şairliyi özünəməxsus bir diplomatiya" adlandıraraq bu diplomatiyanı milliliyə müncər edə bilir.

Nəriman Həsənzadə yaradıcılığını xüsusiyyətlərlə araşdıran Nizami müəllim milli-estetik normativliklə öz ideallarını ədəbi fikir səhnəsinə, "milli "genotip" səhnəsinə gətirir. Nəriman Həsənzadə yaradıcılığının üçüncü xüsusiyyəti onun milli-estetik normativliyidir - bu o deməkdir ki, N.Həsənzadənin sözü ancaq bir şairin sözü deyil, millətin (və hətta həmin millətə məxsus dövlətin) sözü olaraq təzahür edir, subyektiv "axtarış", eksperimentlərdən uzaqdır, ancaq şair normativliyi zədələmədən müəyyən improvizasiyalara, özünəməxsus stilistik maneralara da müraciət edir (2).

Öyünən, tarixə düşən cahangirləri tərifləyən bizlər, Şah İsmayılı, Əmir Teymuru, Osmanlı sultanlarını baba adlandıran bizlər nədənsə o dövrün şairlərinə "saray şairləri" damğası vurmağa tələsdik. Bu incə məqama aydınlıq gətirən akademik elə öz akademik fikirləri ilə "məntiqə söykənməyə" çağırır: "Azərbaycan ədəbiyyatşünaslığında "saray ədəbiyyatı" anlayışı mövcuddur - çox təəssüf ki, bunu biz "xalqdan xəbəri olmayan, xalqa yad olan ədəbiyyat" mənasında inkar etmişik. Əslində isə bütün dövrlərin saray ədəbiyyatları öz dövrünün ən mükəmməl (ən normativ) ədəbiyyatı olmuşdur - bu günə qədər millətin böyük ədəbiyyatını təmsil edən Xaqani "Divan"ı, Nizami "Xəmsə"si, M.Füzuli "Divan"ları hansı şəraitdə yaranmasından asılı olmayaraq saray ədəbiyyatının (ümumən mədəniyyətinin) hadisəsidir... Bu gün saray yoxdur, ancaq müstəqil Azərbaycan dövləti var: təbii ki, həmin dövlətin nüfuzu səviyyəsində duran ədəbiyyat da olmalıdır - mənim fikrimcə, N.Həsənzadənin yaradıcılığı bu gün məhz həmin səviyyədədir: milli dövlətçilik hissini kifayət qədər mükəmməl şəkildə təzahür etdirir. Xüsusilə, bugün- milli dövlət quruculuğunun hazırki məqamında Azərbaycan xalqına onun demokratik dövlətçilik duyğusunu zənginləşdirən ədəbiyyat daha çox lazımdır: rəsmi ideologiyanın lazımi mükəmməllikdə iş göstərməsi üçün ona xidmət edən "rəsmi ədəbiyyat" da olmalıdır. N.Həsənzadə bugün həmin ədəbiyyatın ən gözəl nümunələrini yaratmaqdadır: "Azərbaycan harayı", "Bütün millətlərə", "Salam, Azərbaycan", "Bəyanat" və s.

Yuxarıda qeyd etdiyim kimi, şairlik - özünəməxsus bir diplomatiyadır və bu mənada N.Həsənzadə Azərbaycanın ən səmimi diplomatıdır...

Hər cür "diplomatiyalar"ın tüğyan elədiyi bir dövrdə "şair diplomatiyası"nın rolu, mövqeyi nədən ibarətdir? "Şair diplomatiyası" hər cür "diplomatiya"dan daha humanistdir, daha demokratikdir, daha bəşəridir - şair özü aldanmasa "aldada" bilməz, "aldanaraq aldatmaq" isə hər cür "diplomatiyadan fərqli olaraq "şair diplomatiyası" əlamətidir. Və dünyanın böyükləri cərgəyə düzüləndə əvvəl peyğəmbərlər, onların arxasınca isə şairlər gəlirlər...

"Elçin. Yazıçının yaradıcılıq yolu" portretində şifahi xalq ədəbiyyatına sevgini birinci yerdə saxlayan akademik bu milli koloriti ümumbəşəriliklə sintezdə verə bilir: "Elçinşünaslığım ən maraqlı məsələlərindən biri də yazıçının yaradıcılıq genotipologiyasının hansı üzvi tərkib hissələrindən ibarət olmasıdır kı, biz, ilk növbədə, aşağıdakıları fərqləndirmək istərdik:

(Davamı 7-ci səhifədə)

AKADEMİK NİZAMİ CƏFƏROV: MİLLİ İDEALLAR

(Əvvəli 4-cü səhifədə)

a) Azərbaycan şifahi xalq ədəbiyyatına (folkloruna) dərindən (və elmi izaha çətin gələn təbii bir inersiya ilə) bağlılıq - elə bir mükəmməl bağlılıq ki, Elçinin ümumən bədii (yalnız bədiimi?) təfək-kürünə çökmüş, daha doğrusu, onun yazıçı təfək-kürü mənşəyini həmin doğma, zəngin və sağlam mənəvi qaynaqdan almış, almaqda da davam edir və yazıçının heç zaman dayanmayan yaradıcılıq təkamülünün, həyatiliyinin, humanizminin, dil-üslubundakı tükənməz təravətin sirrini də, hər şeydən əvvəl, burada axtarmaq lazım gəlir.

b) Elçin Azərbaycan folkloru ilə yanaşı, Azərbaycanın həm klassik həm də müasir ədəbiyyatının, ədəbi-ictimai, fəlsəfi fikrinin indiyə qədərki ən görkəmli araşdırmalarından (və bilicilərindən) biridir - təşəkkül tapdığı dövrlərdən bəri də bir milli ədəbi hadisə təsəvvür etmək çətindir ki, Elçin onun haqqında mötəbər söz deməmiş, bir çoxunu isə ilk dəfə müasir elmi-metodoloji mövqedən geniş şərh edib Azərbaycan ədəbiyyatı tarixinin ayrı-ayrı mübahisəli ədəbi hadisələrinə, mərhələlərinə, dövrlərinə aydınlıq gətirməmiş, bütövlükdə isə özünün analitik (və aydın) məntiqi ilə ümumən ədəbiyyatın tarixi inkişaf magistralına gur işıq salmamış olsun - odur ki, Elçinin bədii təfəkkürünü müxtəlif yaradıcılıq dönəmlərində get-gedə daha da mükəmməlləşdirən ikinci amil mənsub olduğu xalqın böyük ədəbiyyat yaradıcılığının təcrübəsini özünəməxsus istedadla, intellektlə, yaradıcı ürəkgenişliyilə mənimsəmişdir ki, bunun da nəticəsində Elçin Azərbaycan xalqının əbədiyyətə bəxş etdiyi ən qüdrətli yazıçılar sırasına yüksəlmişdir (4);

c) nəhayət, Elçinin bədii təfəkkürünün genotipində dayanan aparıcı amil-əlamətlərdən biri də dünya ədəbi-estetik təfəkküründən gələn ümumbəşəri dəyərlərdir - bu dəyərləri lazımi dərinliyi (və genişliyi) ilə özüननkü edib, yaradıcı axtarışlarının əsas prinsiplərindən birinə çevirməsəydi Elçin yetmişinci illərdən başlayaraq əldə etdiyi uğurlara bu səviyyədə nail ola bilməzdi...

Nizami müəllimin Elçin üçün yazdığı "əlinə qələm aldığı ilk günlərdən yazdığı dilin "anatomiya"sını o qədər dərindən mənimsəməsi ki, ana dilini (Azərbaycan dilini) öz ədəbi-intellektual (və humanist) istedadının gücü ilə əsərlərinin hər hansı başqa bir dilə tərcüməsini "çətinləşdirən" bir səviyyəyə yüksəltməsi" sətirlərini oxuyaraq bu məqamda Nizami müəllimin "dil anatomiyası" termininə uyğun bir fikir söyləmək istədim. Tibbdə bir deyim var: "Non est medisine sine anatomiya" yəni anatomiyasız təbabət yoxdur, yəni Nizami müəllim Elçinin timsalında deyir ki, dil yoxdursa, millət də yoxdur, dövlət də yoxdur!

"Vidadi Babanlı" portret-əsərində Nizami müəllimin milli idealları yazıçı-şair Babanlı yaradıcılığı əsasında özünü bariz şəkildə göstərir: Müstəqillik mübarizəsinin ilk illərində - 90-cı illərdə, akademik demiş "Azərbaycan üçün tale əhəmiyyətli illərdə" Babanlının "Kişilik himnin"dən yazması yenə də Nizami müəllim xarakterindəki incəlikləri açıb göstərir: "Vidadi Babanıı Azerbaycan üçün tale əhəmiyyətli həmin illərdə özünün "Kişilik haqqında söz"ünü dedi - "Kişilik himni"ni yazdı:

. . .

Belə bir mifoloji təsəvvür var ki, Vətənin başını qara buludlar alanda yalnız real qəhrəmanlar deyil, xalqın ən qədim zamanlardan başlayaraq yaratdığı irreal (mifik) qəhrəmanlar da köməyə gəlir, əcdadların ruhu da mücadiləyə qalxır, Vətənin dağı-dərəsi, çölü-düzü də düşmənə qarşı döyüşür (3):

Ümumiyyətlə, Vidadi Babanlının 90-cı illərin əvvəllərində yazdığı "Var ol, vətən!", "Sağ-salamat qayıdın!", "Qırmızı qəbirlər", "Nə ad verim bu dünyaya?", "İnşallah", "Haqq məhkəməsi" və s. kimi şeirlərində zamanın ictimai- siyasi əhvali-ruhiyyəsi, güclü vətənpərvərlik duyğuları öz geniş (və enerjili!) əksini tapır. Və fikrimizcə, "İstiqlal nəğməsi" şairin bu dövr yaradıcılığının yekunudur (3):

Bu portret əsərlərdə akademik Nizami Cəfərovun daşıdığı milli idealları kiçik bir məqalədə işıqlandırmaq təbii ki, çətindir. Sonda Nizami müəllimə Azərbaycan elminin inkişafına xidmət yolunda, milli idealların həyata keçirilməsi yolunda sağlam uzunömürlülük diləyirəm.

Ədəbiyyat:

1. *Cəfərov N. Mir Cəlalın milli idealları Nizami Cəfərov: elmi məsl., N.Həsənzadə, elmi red. K.Tahirov, - Bakı, 2018, - 112s.*
2. *Nizami Cəfərov. Elçin. Yazıçının yaradıcılıq yolu elmi red. K.Tahirov - Bakı, "Zərdabi LTD" MMC, 2017, 280 səh.*
3. *Nizami Cəfərov. Vidadi Babanlı. Bakı, "Nurlan", 2010, - 64 səh.*

Nağdəli ZAMANOV,
ATU-nun dosenti, tibb üzrə fəlsəfə doktoru
AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı